Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 25 (2059) 3 mart 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# M.P.Vaqifdə ali müdriklik hissi və gözəllik anlamı

(əvvəli ötən saylarımızda)

Aşiq məhəbbətdən doğan xoşbəxtliyin mənbəyini, mahiyyətini səmada yox, real mövcudiyyatda axtarır. Onu yaşadan, nikbin ruha bağlayan həyat eşqi, vüsal səadətidir:

**Eşqi gərək gözəl ola kimsənin,**
**Ta qalmaya tərkin nazi-qəmzənin,**
**Yarlıqdakı yoxdur xəyalın sənin,**
**Bəs dünyada yaranmağın nədəndir?**

Belə halda M.P.Vaqifin lirik surəti hər cür mistikadan, dini təəssüblərdən uzaqda dayanır, çün nikbinlik bu poeziyanın uçan qanadıdır. Şairin gözəllik, paklıq timsallı qəhrəmanları zəngin mənəviyyata malikdir, dərin zövq sahibidir. Hətta islamiyyətin mütləqləşdirilmiş bəzi adətləri ilə münasibətdə sərbəstdilər. Real gözəlliyi, eşqi, ünsiyyəti xülyadan boylanan behiştlə dəyişmək istəmir. Dünyanın əzabını axirət nazü - nemətlərdən üstün tutur. Həyatda rast gəldiyi "üzünü həm qiblə, həm Məkkə, Mədinə hesab etdiyi, "qaşlarının tacına iki dünyanı qurban" verməyə hazır ol-duğu gözəlləri unudub, əfsanəvi pərilərin xəyalı ilə nəfəs almağı lazım bilmir. Sevdiyinin hüsnü, vüsalı onun üçün unudulmazdır:

**Ey mələk xoylu, ey tuba boylu yar**
**Kuyindir cənnəti - rizvanım mənim.**
**Huri qılman olsa, girməz gözümə,**
**Sənsən candan əziz cananım mənim.**

Kamal, mərifət onun istəyidir, eşqində də, səadətində də bu qüvvəyə inanır, arxalanır. Yalnız kamal sahibləri gözəlin məhəbbətinə, etibarına inanır. Buna görə də lirik qəhrəman gözəlliyi yalnız zahiri əlamət və keyfiyyət kimi başa düşmür, əsl mənasını forma ilə məzmunun vəhdətində görür. Qadın zahirən gözəl olduğu qədər də ruhən sağlam, kamallı olmağa can atmalıdır, çün o, namuslu, etibarlı və səmimi kişi önündə dayanmışdır.

**Gözəl gərək əl götürə cəfadan,**
**Ləzzət görə həmdəm zövqü səfadan.**
**Vaqifəm, qaçaram mən bivəfadan,**
**Qurbanıyam bir vəfalı gözəlin.**

Beləliklə, şair belə bir müddəanın tərəfdarı idi: ağılla qəlb, mənəvi təlabatla ehtiras, fiziki bütövlüklə daxili kamillik birləşməlidir. Əks halda, fitri gözəllik, zahiri qəşənglik, saf hisslər bir-birilə tamamlanmayanda mənasızlaşır. Kişi və qadın bir-birindən estetik və şəhvani zövq alırsa, məhəbbət invariant səciyyəli olur, daha imperativliyə ehtiyac qalmır. "Cütlər" ağıllarının gücü və bütövlüklərilə gözəllik rəmzinə çevrilməyə layiqdir. Şair "gözəllik əxlaqi saflıqdır" fikrini poeziyasına səhər açılan güllərin ətri kimi səpələmişdir! M.P.Vaqif qadına, məhəbbətə mənsub olduğu xalqın adət - ənənəsi, zövqü - istəyilə bağlı duyğularla baxmışdır. "Sevdiyim ləblərin yaquta bənzər" şeirində insanı ruhlandıran, yaşadan müqəddəs məhəbbəti, sevdiyinin gözəlliyini tərənnüm edir, "camal gizlədib üz göstərməsi"ndən, onun qara gözlərinin həsrətiylə əriyən günlərindən səssiz-səmirsiz şikayətlənir. Ona görədir, gözəlliyi yüksək qiymətləndirən şair bu möcüzəli payda bir məna arayır: şeirində özünü göstərən açıq təsvir - bu tipli qoşmalarında arxa plana keçir. Şair gözəllərin təbii, həqiqi duyğu və düşüncələrini verir, canlı surətlərini əlvan dona bükür:

**Sənsən mənim ayım, günüm, halalım,**
**Dövlətim, iqbalım, canım, cəlalım,**
**Gözəl üzün daim fikrü xəyalım,**
**Sözün dildə şirin hekayətimdir.**



Gah oynağan, dürüst biçimli, gah az danışan, gah ənliksiz - kirşansız lirik qəhrəman yaşmaq tutur. Bəzən də dodağı şəkər, söhbəti şirindir, çün onlar həyatdan şairin poeziyasına yol almış, ətə-qana dolmuşlar. Belə gözəlləri yaxından sezdikdə rus tənqidçisi B.Q.Belinskinin sözlərini xatırladım: "Naturadan yazmaq azdır və hər naturadan yazılan əsər sənət əsəri olmur: naturadan alınan hər şey şair xəyalında qaynamalı, şairin mənliyindən, qəlbindən keçməlidir ki, həqiqi sənət əsərinə çevrilsin.

M.P.Vaqif poeziyasında gözəllik idealı mənalıdır, təbiət və cəmiyyətdəki şeylər (nəsnələr) gözəlliyin xoş ətrilə çimmişlər, mərmər sinəli, tovuz bəzəkli, nəfəsi gül qoxuyan, işarə anlayıb hal bilən əhdinə sadiq məxluqu təmsil edir. Qadın gözəlliyinin belə zövqlə, ilhamla, həvəslə tərənnümü zamanın estetik görüşlərinə qüvvətli təsir göstərirdi, ona görə ki, bu gözəlliyin gücü məhəbbətin həyatı xatırlamasında, davranışda təzahür edirdi. Bu gözəlliyin ehtiraslı vurğunu olması ilə zərif gözəlliyi təbliğ edirdi, yeri gələndə yaşmağa qarşı çıxırdı. Şairə görə, gözəlliyi gizlətməyə dəyməz: üzü, zülfü yaşmaq altda gizlətmək qəbahətdir. Axı bu gözəllər oğrun baxar o yaşmaqdan. Şair oxucusunu belə bir gözəlliklə üzbəüz dayandırır.

**Sən qönçə kimi hər bir eldən dəmdə yaşınmaq,**
**Artar bizə yüz mərtəbə odlarına yanmaq.**
**Mən aşiqəm, ey gül sənə, olmaz bunu danmaq,**
**Ölən gündən eyləmərəm səndən usanmaq,**
**Dəxi nə yaşınmaq, nə bürünmək, nə utanmaq?**
**Bəsdir bu dayanmaq.**

Tamamilə təbii nəticədir. M.P.Vaqif pıçıldayır ki, mən sənin gözəlliyini həmişə duymuşam; duruşun, yerişin, əlvan libası, bəyaz biləyin daima məni qanadlandırmış, məhəbbət hissi oyatmışdır. Elə isə nə lazım gizlətmək! Bununla şair gözəlliyi qadının özündə axtarır. Gözəllik, məhəbbət sevən ürəyin elə nəcib keyfiyyətidir - insanın sevinci də, kədəri də bundan doğur.

M.P.Vaqifin nikbin ruhlu lirikasında gözəlliyə ictimai - mənəvi münasibəti də qabarıqdır: "İki fəlsəfi - poetik motiv qarşı-qarşıya dayanmışdır", "Həyat nəşəsi və dünya əzabı" (M.Əlioğlu). Bunu həməsri, sənət dostu Molla Vəli Vidadi ilə məşhur deyişməsində görürük. Gözəlliyi bütün ruhu ilə duyub həzz alan, məftunluq nəticəsində məhrumiyyət və dünya əzabına sinə gərən şair Vidadini söz meydanına səsləyir.

Həyata bağlılıq, insanın yaratdığı gözəlliklərə vurğunluq bədbinliyi üstələyir; ağır dəqiqələrdə özünü itirməmək, iradəni səfərbərliyə almaq həmişə məğrurluq aşılamışdır Vaqifdə olduğu kimi:

**Ta cəsədin cuda olmayıb candan,**
**Bil özünü artıq sultandan, xandan,**
**Qəriblik, ayrılıq nədir ki, ondan,**
**Bu qədər çəkibən azar, ağlarsan?**

Şairin iddiası odur - həyatın, təbiətin, gözəlliyin mənasını idrak edənlər və qiymətləndirənlər dünyəvi bəşəri əzabı duymazlar, zəif hisslərlə yaşamazlar. Çətinliklərdən əyilmək, sakit guşəyə çəkilib xısın-xısın ağlamaq məhdudiyyətidir, xarakterin dözümsüzlüyüdür. Onun üçün mənəvi sıxıntı əzablı vəziyyətlə müqayisədə həyatın sevinci qüvvətli və tükənməz görünür. Həyatın insanın daxili aləminə verdiyi yaşamaq duyğusu - hissi hər cür kədərdən, sarsıntıdan güclüdür.

**Keçən işdən mərd igidlər pozulmaz,**
**Atalar deyiblər: tökülən dolmaz,**
**Qatıq üçün qışda ağlamaq olmaz,**
**İnşallah gələr bahar, ağlarsan.**

Aydındır ki, şair dünyəvi əzabı rədd edir, axirət həsrətilə yaşamağı, həyatın vurduğu zərbələrə duyğusuz varlıq kimi tab gətirməyi insan üçün münasib əlamət hesab etmir. "Toy - bayramdır bu dünyanın əzabı" - deyə tam nikbin qayəni əsas götürür. M.P.Vaqifin taleyi, şahidi olduğu məsələlər M.V.Vidadidə olduğundan acınacaqlı idi, ibrətliydi, çün ictimai səciyyəliydi. M.V.Vidadi həyatın qəm yükünü, dərin ruhi iztirablarını ömrü boyu yaşadığı halda, M.P.Vaqifə bu, həyatının son illərində qismətinə düşdü. Həssas qəlbli şair mənəvi sarsıntılara məruz qalmış, feodal mühitinin kəskin ziddiyyətlərinin qurbanı kimi məhvə düçar olmuşdur. Vaxtilə şair dostunun dediyi:

**Çox bulanma bu dünyanın qanına,**
**Vəfa yoxdur sultanına, xanına,**
**Danasını bir gün qoymaz yanına,**
**Bizim inək tək təpərə ağlarsan**

- sözləri, nəhayət, gözəllik vurğununun həyatına daxil oldu. Və "Görmədim" müxəmməsində bədii - siyasi və mənəvi - sosial ittihamnaməyə çevrildi! M.P.Vaqif üçün, onun dünyagörüşü üçün gözəllik, zövqlülük xoşbəxtlikdir, səadətdir. Şair elə belə bu qənaətə gəlməmişdir, onun intellekti bu qənaətə diqqət etmişdir. Antik filosof M.T.Siseron (e.ə. 106-43) göstərmişdir ki, insanlar xoşbəxt yaşamaq sənətini öyrənməlidir. İnsanda xoşbəxtliyə cəhd təbii olan özünümühafizədir, anadangəlmə hissdir. Bu dünyada bədənə və ruha xidmət insanı xoşbəxtliyə hazırlayır. M.T.Siseron yazır ki, bədən xoşbəxtlik ilahəsi - taledir və onun özü kor olur, xoşbəxt etdiyi adamları da kor edir. Məhz M.P.Vaqifin taleyi də istisna olmadı. Səadət, digər bir antik filosof Aristotelin (e.ə. 384-322) etikasındakı evdemoniya - səadət bütün insanların can atdığı ən yüksək nemətdir. Lakin bu: həzz, nəşə səadət üçün əsla kifayət deyil, yalnız xoşbəxt yaşamağın bir ünsürüdür.

(ardı növbəti sayımızda)

**Allahverdi Eminov**



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR